# BANK KREDİTLƏRİ

# *mövzusu üzrə video dərs*

**İLKİN QARAYEV**

**Bakı - 2020**

# KREDİT NƏDİR

**Kredit** – dəyərin müvəqqəti istifadəyə verilməsi səbəbi ilə yaranan, borcalan və kreditor arasında formalaşan iqtisadi münasibətlərdir. Kredit latın dilindən tərcümədə iki məna kəsb edir: - “inanıram, etibar edirəm” və “borc”.

# KREDİT NƏDİR

**Kreditin müxtəlif formaları vardır:**

- **Kommersiya krediti** - bu müəssisələrin bir-birinə məhsul şəklində verdikləri borcdur.
- **Bank krediti** - kommersiya bankları və digər kredit təşkilatları tərəfindən müştərilərə verilən kreditdir
- **İstehlak krediti** - uzun müddətli istifadə üçün nəzərdə tutulan əşyaların əldə edilməsi məqsədilə verilən kreditdir
- **İpoteka krediti –** daşınmaz əmlakın girovu yolu ilə verilir
- **Digər**

# BANK KREDİTİ NƏDİR

**Bank krediti** - kommersiya bankları və digər kredit təşkilatları tərəfindən pul vəsaitləri formasında hüquqi və fiziki şəxslərə, həmçinin dövlətə və xarici müştərilərə verilən kreditdir. Banklar, kredit münasibətlərində əsas yer tutur və müəssisələrin normal fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir.

# Kreditin verilməsinin əsas prinsipləri

- Kredit müəyyən məqsəd üçün verilir
- Kredit müəyyən müddətə verilir
- Kredit geri qaytarmaq şərti ilə verilir
- Kredit müəyyən faizlə verilir
- Kredit adətən təminatla verilir



# KREDİTİN MƏQSƏDİ

**Bank kreditləri borcalana müəyyən məqsədlər üçün verilir:**

- Yeni biznesin yaradılması üçün
- Maşın, mexanizm və ya avadanlıqların alınması üçün
- Dövriyyə vəsaitinin təmin edilməsi üçün
- Tikinti işlərinin aparılması üçün
- Başqa tərəflərə olan borcların ödənilməsi üçün
- Xammal alınması üçün
- Digər

# KREDİTİN MÜDDƏTİ

**Kreditləri qaytarılma müddətinə görə üç yerə bölmək olar:**

- Qısa müddətli kreditlər – bir ilə qədər verilir
- Orta müddətli kreditlər – bir ildən üç ilə qədər verilir
- Uzun müddətli kreditlər – üç ildən artıq müddətə verilir



# KREDİTİN GERİ QAYTARILMASI

Əgər borcun qaytarılma şərti yoxdursa, ona ümumiyyətlə kredit demək olmaz. Kreditlər, kredit müqaviləsində göstərilən müddətdə və razılaşdırılmış şərtlərə uyğun olaraq qaytarılmalıdır.



# KREDİTİN FAİZLƏRİ

Bank kreditləri adətən müəyyən faizlərlə verilir və müddəti çatdıqda əsas məbləğə hesablanmış faizlərlə birlikdə geri qaytarılmalıdır. Sahibkar kredit götürməyə qərar verərkən, onun biznesinin həm kredit məbləğini, həm də hesablanmış faizləri ödəmək üçün kifayət qədər gəlirli olmasından əmin olmalıdır.



# KREDİTİN TƏMİNATI

Maliyyə institutları kredit verərkən onun qaytarılacağından əmin olmaq üçün adətən təminat tələb edirlər. Bu təminatlar həm maddi formada (daşınar və daşınmaz əmlak), həm də qeyri maddi formada (bank zəmanəti, qiymətli kağızlar və s.) formada ola bilər.



# DİQQƏTİNİZƏ GÖRƏ ÇOX SAĞ OLUN!

